# Rusiya KİV-i “Jara” festivalından yazır

Rusiyanın 70-dək KİV-i “Jara” festivalından söz açdı. “Lifenews”, “Spletnik”, “Woman”, “7days”, “Hello”, “Starhit”, “Woman's day”, “OK!”, “Peopletalk”, “Komsomolskaya pravda” və digərləri, sosial şəbəkələr festivaldan bəhs etdi. Festivala dair foto və maraqlı məlumatlar KİV-in və sosial şəbəkələrin əsas səhifələrini, sözün yaxşı mənasında, zəbt etdi. Məqalələrdə vurğulandı ki, bu festival əsl musiqi bayramına çevrilməklə həm iştirakçıların, həm də qonaqların yaddaşında uzun müddət qalacaq. Bakıdakı xoş mühit, iqlim, dəniz, mətbəx, yüksək şərait festivalı yaddaqalan və unudulmaz etdi. Təşkilatçılardan biri Sergey Kojevnikov Rusiya KİV-inə müsahibəsində festivala göstərilən dəstəyə görə Prezident İlham Əliyevə və onun ailəsinə səmimi minnətdarlığını bildirib.

Əminliklə deyə bilərik ki, müğənni və bəstəkar Emin, Rusiyanın Əməkdar Artisti Qriqori Leps, “Russkoye radio”nun və “Qızıl qrammofon” mükafatının təsisçisi Sergey Kojevnikovun təşkilatçılığı ilə keçirilən bu festival Azərbaycanda uğurla keçirilən daha bir beynəlxalq mədəni tədbir kimi tarixə düşdü. Bu möhtəşəm festivalın baş tutması Azərbaycanın bu cür tədbirləri keçirmək üçün geniş imkanlarını bir daha nümayiş etdirdi.